MİN BİR MAHNI

MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT QƏZETİ Qəzet həftədə bir dəfə çıxır, № 16, 25 noyabr 2002
Qiyməti : 1000 manat

BAS-TARI VARİD FƏRZƏLİBƏYOV İXTİRA EDİB.

səh. 8-9

BU SAYIMIZDA OXUYUN

Mədəniyyət xəbərləri səh. 6
Həsən Cəbryılovdan yumor payı səh. 13
Əli Qarabağlı. TOY səh. 7
Vaqif Əliyev. Sarı Simi dilləndirir hər bəstəsi səh. 14
"Vağzalı" havası necə yaranıb? səh. 3
Nəsrəddin Tusinin fəlsəfi və estetik görüşləri səh.12

AĞDAM MUĞAM MUSİQİ MƏKTƏBİNİN YARANMASINDA NÜSRƏT KƏSƏMƏNLİNİN ROLU OLUB

Səh. 3



KÖNÜLLƏRİ GÜLDÜRƏN

Səh. 5

«Min Bir Mahnı» -bütün mahnılar

«Min Bir Mahnı» - nəğməli könüllərin kitabı

«Min Bir Mahnı» - XXI əsrin mahnı kitabı

«Min Bir Mahnı» - ailənizin mahnı kitabı

«Min Bir Mahnı» -

BAS-TARI VARİD

Bas - tar deyilən alət olub, unudulub. Musiqiçilər onu rusların domrası ilə əvəz edirdilər. Biz bu aləti axtarıb tapdıq - ona Cahar - tar, Bəm - tar da deyirlər. Doğrusu biz onun şəklini görmüşdük. Sonra lampa zavodunda bir mühəndis var idi. Biz müraciət etdik və o bizə həmin tardan düzəldib verdi.

S.Mustafayev "Min bir mahnı" 28.10.2002 № 13

Müsahibəni oxuduqdan sonra redaksiyamızla əlaqə saxlayan oxucumuz, ixtisasca musiqiçi olan İrfan Fərzəlibəyova: - "Bas tar" qədim musiqi aləti deyil, onu mənim mərhum qardaşım Varid Fərzəlibəyov ixtira edib-dedi və mənə müxtəlif sənədlərlə, artıq kağızı saralmış qəzetlərlə dolu bir qovluq təqdim etdi.

Daha sonra İrfan xanım: - Varidin Bas - tarı ixtira etdiyini sübut edən sənədlər, şəkillər, ixtiraçı şəhadətnaməsi, bas - tar haqda 60-70 -ci illərdə müxtəlif qəzetlərdə dərc edilən məqalələrdir bu qovluqda... - dedi və:

- Rəhmətlik çox sadə və olduqca təvazökar idi... - deyə əlavə etdi.

Təvazökarlığın nə olduğunu kimdən soruşsan, yəqin ki, hamı onu insana xas olan ən yüksək keyfiyyət kimi səciyyələndirər.

Əlbəttə ki, dildə... Əslində isə vaxtilə doğrudan da normal insan xarakterinin mühüm cəhəti hesab edilən təvazökarlıq bu günümüzün reallığında öz əski dəyərini itirərək sadəlöhvlük qədər yolverilməz olub.

"Ağlamayana papə yoxdur" prinsipi ilə səhərdən axşamacan özümüzü reklam edən bizlər gördüyümüz ən xırda işi də mütləq "gözə soxur", öz "dahi"liyimizi daim diqqət mərkəzində saxlamağa çalışırıq. Əziz oxucu! Biz təvazökarlığın yüksək mənəvi, etik əhəmiyyətindən deyil, olduqca istedadlı, ancaq sadə və sözün əsl mənasında təvazökar bir insana, hər şeyə "mənə sərf edir və ya sərf etmir" prizmasından yanaşan bizlərin soyuq laqeydliyindən və bu laqeydliyin acı perspektivindən söhbət açacağıq.

Haqqında danışacağımız bu insan bas səsli, orijinal, yeni Azərbaycan musiqi aləti olan Bas - tarın və biri birindən gözəl, milli ornamentlərlə işlənmiş, nadir suvenirlərin müəllifi, incə sənəti ilə çoxlarını valeh edən mərhum Varid Fərzəlibəyovdur.

Varid Fərzəlibəyov 1933-cü il iyunun 4-də Şəki rayonunda dünyaya göz açıb. Kiçik yaşlarından incəsənətə, musiqiyə maraq göstərən Varid tez-tez dərsdən qaçar, saatlarla yerli sənətkarların yanında onların necə işləməsini müşahidə edərdi və gördüklərini mənimsəməyə çalışardı. Vaxtilə Şəkidə yaşamış məşhur tarzən Əhməd müəllimin tələbəsi olmuş Nemət müəllimdən tar çalmağı, muğamı öyrənən Varid ömrünün axırına qədər nə az, nə çox mükəmməl olaraq ondörd sənət öyrənmişdi. Hələ 10-cu sinifdə oxuyarkən miniatür tar düzəltməsi onun milli musiqi alətimiz olan tara vurğunluğundan xəbər verirdi. Azərbaycan xalq çalğı alətləri ansambllarında bas səsli milli çalğı alətinin olmaması gənc yaşlarında musiqi və musiqi alətlərini mükəmməl bilən Varidin diqqətini çəkir. Və o, onu dərindən düşündürən bu boşluğu doldurmaq məqsədi ilə yeni, orijinal, bas səsli musiqi aləti düzəltmək qərarına gəlir. Və nəhayət buna nail olur.

Otuz illik "qovluq həyatından" saralmış qəzetlərə müraciət edirik:

GÖZƏL İXTİRADIR!

...Şəkildə gördüyünüz hansı çalğı alətidir?.. Şübhəsiz, siz onun hələ nə üzünü görmüsünüz, nə də səsini eşitmisiniz. Axı, bu çalğı aləti dünyaya yenicə gəlib. Onu gənc mühəndis Varid Fərzəlibəyovun qızıl əlləri düzəldib. Müəllif öz gözəl ixtirasına, xarici görünüşünə və səsinə uyğun olaraq "Bas Tar" adı vermişdir.

Bildiyimiz kimi, bas səsli çalğı alətləri, necə deyərlər, orkestrin bünövrəsini təşkil edir, onu daha məlahətli və ahəngdar səsləndirir. Hazırda bas səsli simli alət olmaq etibarı ilə "Bas domrası"ndan, "Kontrabas"dan, "Ud"dan və s. istifadə olunur. Lakin bu musiqi alətlərinin heç biri Azərbaycan xalq çalğı alətləri orkestri üçün əlverişli sayılmır və onun ahənginə uyğun gəlmir.

Budur, musiqişünaslarımızın çoxdan bəri arzuladıqları bas səsə malik orijinal Azərbaycan milli musiqi aləti artıq mövcuddur. "Bas - Tar"ın cəmi dörd simi vardır. Musiqişünasların fikrincə onu Azərbaycan orkestrlərinin və ansambllarının tərkibinə əlavə etmək çox faydalı olacaqdır.

"Bas-Tar", artıq, həyat vəsiqəsi almışdır. Yaxın vaxtlarda bu yeni musiqi aləti kütləvi surətdə istehsal edildikdən sonra, musiqi məktəblərində onun ifaçıları hazırlanacaq, biz onun səsini Azərbaycan xalq musiqi alətləri orkestrlərindən və ansambllarından eşidəcəyik.

M.Dadaşov "Azərbaycan gəncləri" 1962-ci il

Bu nadir ixtiranın ən maraqlı və mühüm cəhətlərindən biri bu idi ki, müəllif dünya praktikasında görünməmiş bir tapıntı etmişdi. Bu isə ondan ibarət idi ki, simli alət olan bas - tarın istənilən vaxt tembrini dəyişmək mümkündür. Varidin bas tarına qədər belə bir yeniliyə dünyada təsadüf olunmayıb. Hətta müəlliflik şəhadətnaməsində bu yenilik xüsusilə qeyd olunub.

BAS TAR, YOXSA VARİD TAR?

O zaman Varid ixtira etdiyi musiqi alətinin üzərində işləyərkən rəhmətlik atası nəsib bəy ona məsləhət verib ki, oğul, sən ki, bu qədər əziyyət çəkirsən heç olmasa bu alətə öz adını qoy. Yoxsa bas - tar adını qoymaqla insanları çaşdıra bilərsən. Onlar elə düşünərlər ki, bu adi tardır. Ancaq Varid təvazökarcasına bu təklifdən imtina edir və bildirir ki, "mən bizim milli musiqi alətimiz olan tarın şərəfinə bu alətə bas - tar, yəni bas səsli tar adını verəcəm". Beləcə yeni yaratdığı musiqi alətinə bas - tar adı verən Varid, Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına üz tutur. Bas tarı təqdim etdiyi ilk musiqiçi mərhum Əhməd Bakıxanov olur.

OXU, BƏM TAR...

"Bakı" qəzeti 10.02.1969. Yusif Kərimov

Mən bu tarı dinləyərkən onun səsini adi tarın səsinə bənzədə bilmədim. Bu, udun, yoxsa sazın səsinə oxşayır? Ayırd etmək çətin idi. Əməkdar incəsənət xadimi Əhməd Bakıxanov bu qeyri adi tar


РЕШЕНИЕ

haqqında belə deyir:

- Qədim çalğı aləti olan tar təkmilləşə-təkmilləşə indiki vəziyyətə gəlib çatmışdır. Tara müxtəlif səs çaları verən musiqiçi çox olmuşdur. Tar ailəsindən olan bəm tar son illərdə yaradılmış orijinal musiqi alətidir. O, nə ud, nə də sazdır. Görkəmi kimi, səsi də qeyri adidir. 4 simli bu alət təklikdə çalmaq üçün deyil: o, ansamblda iştirak edən müxtəlif alətlərin səsini bir-birinə bağlayır, başqa sözlə, rabitəçi rolunu oynayır, ansambla ümumi ahəng verir.

Bəm tarın yaradılmasının qəribə tari-

FƏRZƏLİBƏYOV İXTİRA EDİB.

vardır. Bir neçə il əvvəl Azərbaycan Dövlət Konservatoriyasına bəstəboy bir oğlan gəldi. O özü ilə qeyri adi bir musiqi aləti də gətirmişdi. Utancaqlıqla:

- Mühəndisəm, özüm düzəltmişəm, - dedi. - Qulaq asın, bəlkə bir şeyə yaradı.

Oğlan özü çaldı. İlk dinləyicilər isə konservatoriyanın müəllimləri və bəstəkarlar oldular. Cövdət Hacıyev, Əşrəf Abbasov, Cahangir Cahangirov, Səid Rüstəmov, Hacı Xanməmmədov, Əhməd Bakıxanov, Məmmədsaleh İsmayılov və başqaları yeni aləti bəyəndilər.

... Mühəndis "bas tara" görə SSRİ İxtiralar və Kəşflər Komitəsindən müəlliflik şəhadətnaməsi aldı, bəm tarın yeganə nümunəsini isə Azərbaycan radiosunda xalq çalğı alətləri ansamblına bağışladı. O vaxtdan bəri həmin musiqi aləti Əhməd Bakıxanovun rəhbərlik etdiyi ansamblda çalınır (Hazırda Bas-tar Ə.Bakıxanovun ev-muzeyində saxlanılır).

Təəssüf ki, bu orijinal alət hələ də yeganədir. Başqa musiqi kollektivləri bəm tardan istifadə edə bilmirlər.

Fikir verin, hələ 1969-cu ildə "Bakı" qəzetinin müxbiri bu orijinal alətin hələ də yeganə olmasına necə təəssüflənir. Uzun illər kimlərəsə "sərf etmədiyindən" dövlət səviyyəsində Varidin bu ixtirasına olduqca laqeyd yanaşılıb. Bu isə tək Varidə və ya onun nadir ixtirasına deyil, ümumiyyətlə Azərbaycan Milli musiqi alətlərinin taleyinə göstərilən biganəliyin acınacaqlı nəticəsidir ki, 30 il keçməsinə baxmayaraq bas - tar hələ də yeganə olmaqda qalır.

NADİR MUSİQİ ALƏTLƏRİ

"Bakı" 16.06.82. D. Mirzəyeva Azərbaycan Dövlət Musiqi Mədəniyyəti muzeyinin direktoru

Ekspozisiyamızda saxlanan nadir çalğı alətlərindən biri də bas tardır. Onu ən cavan musiqi aləti hesab etmək olar: cəmi 20 il əvvəl ixtira edilmişdir. Tarın bir növü olan yeni alətin diapozonu daha genişdir.

O Azərbaycan xalq çalğı alətləri ansamblları və orkestrlərinin səs "palitrasını" daha da zənginləşdirir. Təsadüfi deyildir ki, bəstəkarlardan S.Rüstəmov, S.Ələsgərov, C.Cahangirov və başqaları bas tar haqqında müsbət fikir söyləmiş, onun ansambl və orkestrlərə daxil edilməsini məsləhət görmüşlər. Bas tarı Azərbaycan Elektrik Lampaları İstehsalat Birliyi Bakı zavodunun mühəndisi V.Fərzəlibəyov ixtira etmişdir. V. Fərzəlibəyov bu yaxınlarda bir bas tar da hazırlamış və "İrs" folklor teatrına bağışlamışdır.

Varid Fərzəlibəyovun ikinci bas - tarı düzəldib "İrs" folklor ansamblına verməsini mərhumun bacısı İrfan Fərzəlibəyova belə xatırlayır:

- "İrs" folklor ansamblı yenicə yaranmışdı. O vaxt Rəşid Nəsib oğlu, Sidqi Mustafayev çox gəlib getdilər. ("İrs" ansamblının yaradıcıları - V.Ə.) Gah zavoda, gah da evə gəlir Variddən bas tarı düzəltməsini xahiş edirdilər. Nəhayət çox təkiddən sonra Varid Bas - tarın çanağını düzəldib onlara verdi. Çanağı aparıb qalan hissələrini özləri düzəltdirdilər və televiziya verilişlərinin birində qədim musiqi alətlərini bir-bir göstərdikdən sonra Bas - tarı cahar - tar adı ilə qədim musiqi aləti kimi təqdim etdilər. Ancaq Varidin heç adını da çəkmədilər. Və təəssüf ki, bu cür biganəlik, unutqanlıq bu gün də davam edir.

Azərbaycan mətbuatında müxtəlif vaxtlarda dərc edilən yazılardan göründüyü kimi mətbuat və musiqi elitası Varidin ixtirasını "ura" ilə qarşılayıb. Hətta 1962-ci ildə Az.Dövlət Konservatoriyasının rektoru olmuş mərhum bəstəkar Cövdət Hacıyev Azərb. SSR Nazirlər Soveti yanında xüsusi ali və orta təhsil komitəsinin sədri Qara Qarayevə, mədəniyyət naziri A.Bayramova, tele-radio Komitəsinin sədri T.Əliyevə müraciət edərək Bas-tara patent verilməsi, bu musiqi alətinin xalq çalğı alətləri ansambllarının və orkestrlərinin tərkibinə, o cümlədən musiqi məktəblərinin tədris planına salınması haqqında qərar qəbul edilməsini xahiş etmişdir. Müraciətdə deyilirdi:

Недавно, молодой инженер, музыкант В.Фарзалибеков представил в Азгонсерваторию сконструированный им новый вид азербайджанского народного музыкального инструмента - "Бас - Тар", который достаточное время был предметом детального ознакомления и обсуждения со стороны членов кафедры азербайджанской народной музыки нашей Консерватории, а так же видных специалистов - музыкантов республики: С.Рустамова, А. Бакиханова, С. Алескерова, А. Аббасова, Адиль-Герая, Г. Ханмамедова, Р. Эфендиева и др.

Музыкальный инструмент "Бас-Тар" В.Фарзалибекова был одобрен и принят указанными специалистами как имеющий большое значение для наших оркестров и ансамблей азербайджанских народных инструментов и как вполне соответствующий своему назначению.

Сообщая о вышеизложенном ректорат Азгосконсерватории просит Вашего решения на приобретении патента инструмента "Бас-тар" гр-на В. Фарзалибекова и практического введения его в состав оркестров, ансамблей азербайджанских народных инструментов и в учебный план музыкальных учебных заведений а так же Вашего указания соответствующим музыкальным мастеркам на предмет изготовления таковых в необходимым количестве

Cövdət Hacıyevin müraciətindən sizə təqdim etdiyimiz hissəni oxuyan kimi yəqin ki, belə bir sual sizi də maraqlandıracaq: Bəs bu müraciətə necə cavab verdilər? Bu barədə İrfan xanım belə deyir:

- O vaxt Variddən pul istədilər. Nazirlikdə dedilər ki, (məbləğ yadımda deyil) pul versən biz sənə patent verərik və bu alətin kütləvi qaydada istehsal olunması üçün müvafiq tədbirlər görərik. Əlbəttə, Varidin bu qədər pulu yox idi. Ona görə də, bu məsələ elə belə də qaldı.

Qəribədir, axı Bas-tar tək Varid Fərzəlibəyova deyil, ümumiyyətlə Azərbaycan xalqına lazımdır. Bəs belə olduğu halda nə üçün bu alətin taleyi ilə heç kim maraqlanmamalıdır? Bu günə qədər başımıza gələnlər bəs etmirmi ki, biz onlardan düzgün nəticə çıxaraq və öz kalal malımıza sahib çıxaq?

Axı artıq biz azərilərə məxsus olduğu dünyada tanınan, yüz illərlə tarixi olan, xalq mahnılarımızı, milli musiqi alətlərimizi, göz görəti öz adlarına çıxan həyasız qonşularımız üçün Bas-tarın mənimsənilməsi heç də çətin olmaz. Belə olduğu halda nə üçün, otuz il bundan öncə qanı-qanımızdan, canı-canımızdan olan həmyerlimizin ixtira (məhz ixtira!) etdiyi bas-tar bu günə qədər vahid ekzemplyarda muzeydə çürüməlidir?

Nə isə... biz heç kimi qınamaq, ittiham etmək fikrində deyilik. Necə deyərlər, olan olub, keçən keçib. Ancaq "ziyanlığın yarısından qayıtmaq da, kişilikdəndir" deyiblər. Odur ki, üzümüzü milli mədəni irsimizin qorunub saxlanılmasında, inkişaf etdirilməsində əvəzsiz rolu olmuş Azərbaycan **Respublikası Mədəniyyət Naziri möhtərəm Polad Bülbüloğluna tutub,** *vaxtilə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının rektoru olmuş, xalq artisti mərhum Cövdət Hacıyevin 2204 saylı 11 dekabr 1962-ci il tarixli müraciətinə bu gün yenidən baxılmasını, yəni 1962-ci ildə mərhum Varid Fərzəlibəyov tərəfindən ixtira edilmiş (müəlliflik şəhadətnaməsi-31.05.1966; № 1012778 / 28-12) orijinal, bas səsli musiqi aləti olan, bas-tarın xalq çalğı alətləri ansambllarının və orkestrlərinin tərkibinə, o cümlədən musiqi məktəblərinin tədris planına salınması və bu alətin kütləvi istehsalı üçün lazımi tədbirlərin görülməsi barədə müvafiq qərar qəbul etməsini xahiş edirik.*

Vüqar Əlisoy